**Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır**

Bakı Şəhər Vergilər Departamentinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları Paşa Eldar oğlu Hüseynova məxsus (VÖEN: 1501083112) «EF Tech» elektrik malları mağazasında (ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.Şərifzadə küçəsi, 100) əmlakı siyahıya almışlar. Hələ ötən ilin dekabr ayında vergi əməkdaşları tərəfindən aparılmış yoxlama nəticəsində «EF Tech» mağazasında 4 min 252 manat məbləğində vergi borcunun yarandığı müəyyənləşdirilmiş, bundan sonra vergi ödəyicisinə borcun ödənilməsinə dair bildiriş göndərilmişdi. Lakin vergi borcu ödənilmədiyinə görə, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi obyektin əmlakının siyahıya alınması haqqında qərar çıxarılmışdır.

«Desla» MMC-yə məxsus (VÖEN: 1700867591) «Salamander» ayaqqabı mağazasında (ünvan: Nəsimi rayonu, Nizami küçəsi, ev 77/9 və 68) isə 2 min 974 manat məbləğində vergi borcuna görə əmlakın siyahıya alınması keçirilmişdir.